“Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, gömrük-tarif mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi fəaliyyətin səmərəliliyinin artırılması, ölkədə rəqabətədavamlı məhsulların istehsalı, daxili bazarın qorunması və qeyri-neft sektorunun davamlı inkişafında dövlət dəstəyinin daha da gücləndirilməsi, idxal rüsumlarının çoxpilləli sistemdən azpilləli sistemə keçirilməsi, habelə “Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında” Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə kodların Beynəlxalq Harmonik Sistemin yeni variantına uyğunlaşdırılması məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.5-ci və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının 3.2-ci bəndlərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 289, № 8, maddə 560; 2002, № 8, maddə 549, № 9, maddə 581, № 10, maddə 647; 2003, № 2, maddə 147, № 4, maddə 226, № 10, maddə 614, № 12 (II kitab), maddə 749; 2004, № 3, maddə 196, № 4, maddə 307, № 5, maddələr 389, 390, № 9, maddə 743; 2005, № 10, maddə 980; 2006, № 4, maddə 363, № 7, maddə 652; 2007, № 5, maddə 548, № 6, maddə 700, № 11, maddə 1187; 2008, № 4, maddə 325; 2009, № 11, maddə 938; 2010, № 1, maddə 68; 2012, № 9, maddə 928; 2013, № 7, maddə 871; 2014, № 1, maddə 65, № 2, maddə 197; 2016, № 4, maddə 823, № 8, maddələr 1430, 1445, № 9, maddə 1592, № 10, maddə 1698; 2017, № 1, maddələr 116, 119, № 3, maddə 511, № 4, maddə 644, № 7, maddə 1490, № 8, maddələr 1615, 1621; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 noyabr tarixli 479 nömrəli qərarı) 1-ci hissəsi ləğv edilsin.

3. Bu qərar 2018-ci il 1 yanvar tarixindən qüvvəyə minir.

Yaqub EYYUBOV,
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 500

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 17 noyabr tarixli 500 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ FƏALİYYƏTİN MAL NOMENKLATURASI, İDXAL GÖMRÜK RÜSUMLARININ DƏRƏCƏLƏRİ VƏ İXRAC GÖMRÜK RÜSUMLARININ DƏRƏCƏLƏRİ[1]

XARİCİ İQTİSADİ FƏALİYYƏTİN MAL NOMENKLATURASININ ƏSAS ŞƏRHETMƏ QAYDALARI

Malların Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasına (bundan sonra - XİF MN) görə sinifləşdirilməsi aşağıdakı Qaydalara uyğun həyata keçirilir:

1. Bölmələrin, qrupların və alt qrupların adları yalnız XİF MN-dən istifadədə rahatlığı təmin etmək üçün verilir; hüquqi məqsədlər üçün XİF MN-da malların sinifləşdirilməsi mal mövqelərinə, bölmələrə və ya qruplara dair müvafiq qeydlərin mətnlərinin əsasında və bu mətnlərdə başqa hal nəzərdə tutulmadıqda, aşağıdakı müddəalara uyğun həyata keçirilir:

2. a) Mal mövqeyinin adında hər hansı bir mala dair istənilən istinad komplekt və tamamlanmış malın əsas xüsusiyyətlərinə malik olan qeyri-komplekt və ya natamam halda olan mala dair istinad kimi də baxılmalıdır, həmçinin yığılmamış və ya sökülmüş halda təqdim olunmuş komplekt və ya tamamlanmış mala da istinad kimi baxılmalıdır (və ya bu Qaydaya əsasən müəyyən mal mövqeyində komplekt və ya tamamlanmış mala dair istinad kimi sinifləşdirilən mal kimi baxılmalıdır).

b) Mal mövqeyinin adında hər hansı bir materiala və ya maddəyə dair istənilən istinad bu materialın və ya maddənin digər materiallarla və ya maddələrlə qarışıqlarına və ya birləşmələrinə istinad kimi də baxılmalıdır. Müəyyən materialdan və ya maddədən olan mala dair istənilən istinad tamamilə və ya qismən bu materialdan və ya maddədən ibarət olan mallara istinad kimi də baxılmalıdır. Birdən çox materialdan və ya maddədən ibarət olan malların sinifləşdirilməsi 3-cü Qaydanın müddəalarına müvafiq həyata keçirilir.

3. 2 (b) Qaydaya və ya hər hansı bir başqa səbəblərə görə, prima facie, malların iki və ya daha çox mal mövqelərinə aid edilməsi mümkün olduğu halda belə malların sinifləşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:

a) Ümumi təsvirli digər mal mövqeləri ilə müqayisədə üstünlük malın təsviri daha konkret olan mal mövqeyinə verilir. Lakin, iki və ya daha çox mal mövqelərinin hər biri yalnız qarışığın və ya çoxkomponentli məmulatın materiallarının və ya maddələrinin bir hissəsinə, və ya pərakəndə satış üçün dəstdə təqdim olunmuş malların yalnız bir hissəsinə aid edilirsə, hətta mal mövqeyinin birində malın təsviri daha tam və dəqiq verildikdə, həmin mala münasibətində bu mal mövqeləri bərabər olan kimi baxılmalıdır.

b) Sinifləşdirilməsi 3 (a) Qaydasına uyğun mümkün olmayan müxtəlif materiallardan ibarət olan və ya müxtəlif komponentlərdən hazırlanmış qarışıqlar, çoxkomponentli məmulatlar, və pərakəndə satış üçün dəstlərdə təqdim olunmuş mallar, bu meyarın tətbiqi mümkün olduqda, bu mallara əsas xüssusiyyət verən materiala və ya tərkib hissəsinə görə sinifləşdirilməlidir.

c) 3 (a) və ya 3 (b) Qaydanın müddəalarına uyğun sinifləşdirilməsi mümkün olmayan mallar baxılması üçün eyni dərəcədə uyğun olan mal mövqelərinin kodlarının artımı qaydasında sonuncu mal mövqeyində sinifləşdirilməlidir.

4. Yuxarıda göstərilən Qaydaların müddəalarına uyğun sinifləşdirilməsi mümkün olmayan mallar daha oxşar (yaxın) mallara uyğun mal mövqeyində sinifləşdirilir.

5. Yuxarıda göstərilən müddəalara əlavə olaraq aşağıda adları çəkilən mallar üçün aşağıdakı Qaydalar tətbiq edilməlidir:

a) Fotoaparatlar, musiqi alətləri, silahlar, çertyoj ləvazimatları, boyunbağılar üçün çexollar və futlyarlar, həmçinin müvafiq məmulatların və ya məmulatlar dəstinin yerləşdirilməsi üçün xüsusi forması olan və ya uyğunlaşdırılmış, uzun müddətli istifadə üçün yararlı olan və istifadəsi nəzərdə tutulmuş məmulatlarla birlikdə təqdim olunmuş analoji tara, adətən satışa bu məmulatlarla birlikdə təqdim olunduğu halda onlarda qablaşdırılmış məmulatlarla birlikdə sinifləşdirilməlidir. Lakin, bu Qayda qablaşdırılmış məmulatla ayrılmaz bir vahid təşkil edən və ona əsas xüsusiyyət verən taraya tətbiq edilmir.

b) Yuxarıdakı 5 (a) Qaydanın müddəalarına riayyət etmək şərti ilə, adətən bu malların qablaşdırılması üçün istifadə olduğu halda onlarda yerləşdirilmiş mallarla birlikdə təqdim olunmuş qablaşdırma materialı və tara ilə birlikdə sinifləşdirilməlidir. Lakin, belə qablaşdırma materialı və ya tara açıq-aydın təkrar istifadə üçün yararlı olduqda bu müddəanın tətbiqi mütləq deyil.

6. Hüquqi məqsədlər üçün mal mövqelərin yarımmövqelərində malların sinifləşdirilməsi yarımmövqelərin adları və yarımmövqelərə dair qeydlərə, həmçinin, mutatis mutantis, yalnız bir səviyyədə olan yarımmövqelər müqayisəli olması şərti ilə, yuxarıda göstərilən Qaydalara müvafiq həyata keçirilməlidir. Kontekstə başqa şərt qoyulmadığı halda bu Qaydanın məqsədləri üçün bölmələrə və qruplara dair müvafiq qeydlər də tətbiq oluna bilər.

QISALTMALAR VƏ SİMVOLLAR

Bk	bekkerel
V	volt
Vt	vatt
Hs	hers

GHs	giqahers
dteks	desiteks
K	kelvin
kVA	kilovolt-amper
kVt	kilovatt
kHs	kilohers
kqg	kiloqram-güc
km	kilometr
kN	kilonyuton
kPa	kilopaskal
kkal	kilokalori
a.g.	at gücü
kütlə %	kütlə faizi
Mbit	1 048 576 bit
m-	meta-
mq	milliqram
mm	millimetr
mkKü	mikroküri
mH	millinyuton
m^3/saat	saatda kubmetr
mekv	milliekvivalent
N	nyuton
nm	nanometr
həcm%	həcm faizi
o-	orto-
p-	para-
saniyə	san (saniyə)
sm	santimetr
sm^2	kvadratsantimetr
sN	santinyuton
sm/san	saniyədə santimetr
t	ton
°C	Selsi dərəcəsi
ASTM	materialların sınağı üzrə Amerika Cəmiyyəti
INN	İnternational Nonpropritary Name, Beynəlxalq qeyri-fərdi ad
INNM	İnternational Nonpropritary Name Modified, Beynəlxalq modifikasiya edilmiş qeyri-fərdi ad
ISO	İnternational Organization for Standardization, Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat

XİF MN-də TƏTBİQ EDİLƏN ÖLÇÜ VAHİDLƏRİ

Ölçü vahidinin adı	Rəmzi işarələr	Ölçü vahidinin kodları
ƏSAS VAHİD		
Kiloqram	kq	166
ƏLAVƏ ÖLÇÜ VAHİDLƏRİ		
Qram	qr	163
Parçalanan izotopların qramı	q P/İ	306
Tonda yükgötürmə qabiliyyəti	t ygq	185
Kvadratmetr	m^2	055
Kiloqram azot	kq N	861
Kiloqram kalium hidroksid	kq KOH	859
Kiloqram natrium hidroksid	kq NaOH	863
Kiloqram kalium oksid	kq K_2O	852

Kiloqram hidrogen peroksid	kq H_2O_2	841
Kiloqram fosfor 5-oksid	kq P_20_5	865
90 %-li quru maddənin kiloqramı	kq 90% q.m.	845
Kiloqram uran	kq U	867
Kubmetr	m^3	113
Küri	KÜ	305
Litr	l	112
Təmiz (100 %) spirtin litri	L/100% spirt	831
Metr	m	006
Metrik karat (1 karat= $2x10^{-4}$ kq)	kar	162
Cüt	cüt	715
Yüz ədəd	100 əd	797
Min ədəd	1000 əd	798
Ədəd	əd	796
1000 kilovatt-saat	1000 kVt·saat	246
1000 kubmetr	1000 m^3	114
1000 litr	1000 l	130

I BÖLMƏ

DİRİ HEYVANLAR; HEYVAN MƏNŞƏLİ MƏHSULLAR

Qeydlər:

1. Başqa qeyd olmadığı halda, bu bölmədə heyvanın müəyyən cinsinə və ya növünə edilən hər hansı bir istinad, eyni zamanda həmin cinsli və ya növlü cavan heyvanlara da şamil edilir.

2. Başqa qeyd olmadığı halda, bütün Nomenklaturada "qurudulmuş" məhsullar termini, həmçinin susuzlaşdırılmaya, buxarlandırılmaya və ya sublimasiyalı qurudulmaya məruz qalmış məhsulları ifadə edir.

QRUP 01

DİRİ HEYVANLAR

Qeyd:

1. Bu qrupa aşağıdakılardan başqa bütün diri heyvanlar daxil edilir:

(a) 0301, 0306, 0307 və ya 0308 mal mövqeyinin balıqları, xərçəngkimiləri, molyuskları və digər su onurğasızları;

(b) 3002 mal mövqeyinin mikroorqanizmlərin kulturaları və digər məhsulları; və

(c) 9508 mal mövqeyinin heyvanları.

XİF MN üzrə kod	**Mal mövqelərinin adları**	**Əlavə ölçü vahidi**	**Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)**
1	**2**	**3**	**4**
0101	Diri atlar, ulaqlar, qatırlar və at qatırları:		
	– atlar:		
0101 21 000 0	– – safqanlı cins heyvanlar	əd	0
0101 29	– – digərləri:		
0101 29 100 0	– – – ətlik	əd	15

0101 29 900 0	– – – digərləri	əd	15
0101 30 000 0	– ulaqlar	əd	15
0101 90 000 0	– digərləri	əd	15
0102	Diri iribuynuzlu mal-qara:		
	– ev qaramalı:		
0102 21	– – safqanlı cins heyvanlar:		
0102 21 100 0	– – – düyələr (birinci balalamaya qədər iribuynuzlu dişi mal-qara)	əd	0
0102 21 300 0	– – – inəklər	əd	15 (0% *-31.12.2025-ci il* tarixədək)[2]
0102 21 900 0	– – – digərləri	əd	15 (0% *-31.12.2025-ci il* tarixədək)
0102 29	– – digərləri:		
0102 29 050 0	– – – *Bibos* yarımcinsli və ya *Poephagus* yarımcinsli	əd	15
	– – – digərləri:		
0102 29 100 0	– – – – çəkisi 80 kq-dan çox olmayan[3]	əd	5
	– – – – çəkisi 80 kq-dan çox olan, lakin 160 kq-dan çox olmayan:		
0102 29 210 0	– – – – – ətlik	əd	15
0102 29 290 0	– – – – – digərləri	əd	15
	– – – – çəkisi 160 kq-dan çox olan, lakin 300 kq-dan çox olmayan:		
0102 29 410 0	– – – – – ətlik	əd	15
0102 29 490 0	– – – – – digərləri	əd	15
	– – – – çəkisi 300 kq-dan çox olan:		
	– – – – – düyələr (birinci balalamaya qədər iribuynuzlu dişi mal-qara):		
0102 29 510 0	– – – – – – ətlik	əd	15
0102 29 590 0	– – – – – – digərləri	əd	15
	– – – – – inəklər:		
0102 29 610 0	– – – – – – ətlik	əd	15
0102 29 690 0	– – – – – – digərləri	əd	15
	– – – – – digərləri:		
0102 29 910 0	– – – – – – ətlik	əd	15
0102 29 990 0	– – – – – – digərləri	əd	15
	– camışlar:		
0102 31 000 0	– – safqanlı cins heyvanlar	əd	0
0102 39	– – digərləri:		
0102 39 100 0	– – – ev növləri	əd	15
0102 39 900 0	– – – digərləri	əd	15
0102 90	– digərləri:		
0102 90 200 0	– – safqanlı cins heyvanlar	əd	0
	– – digərləri:		
0102 90 910 0	– – – ev növləri	əd	15
0102 90 990 0	– – – digərləri	əd	15
0103	Diri donuzlar:		
0103 10 000 0	– safqanlı cins heyvanlar	əd	0
	– digərləri:		
0103 91	– – çəkisi 50 kq-dan az olan:[4]		
0103 91 100 0	– – – ev növləri	əd	15
0103 91 900 0	– – – digərləri	əd	15
0103 92	– – çəkisi 50 kq və ya daha çox olan:		
	– – – ev növləri:		

0103 92 110 0	– – – – ən azı bir dəfə balalamış, çəkisi 160 kq-dan az olmayan anac donuzlar	əd	15
0103 92 190 0	– – – – digərləri	əd	15
0103 92 900 0	– – – digərləri	əd	15
0104	Diri qoyunlar və keçilər:		
0104 10	– qoyunlar:		
0104 10 100 0	– – safqanlı cins heyvanlar	əd	0
	– – digərləri:		
0104 10 300 0	– – – quzular (bir yaşa qədər)	əd	15
0104 10 800 0	– – – digərləri	əd	15
0104 20	– keçilər:		
0104 20 100 0	– – safqanlı cins heyvanlar	əd	0
0104 20 900 0	– – digərləri	əd	15
0105	Diri ev quşları, yəni ev toyuqları *(Gallus domesticus)*, ördəklər, qazlar, hindtoyuqları və firəngtoyuqları:		
	– çəkisi 185 q-dan çox olmayan:		
0105 11	– – ev toyuqları *(Gallus domesticus)*:		
	– – – ana və əcdad cinsi xətti ilə çoxaldılan cücələr:		
0105 11 110 0	– – – – yumurtlayan növlər	əd	5 (0% *-31.12.2025-ci il* tarixədək)
0105 11 190 0	– – – – digərləri	əd	15 (0% *-31.12.2025-ci il* tarixədək)
	– – – digərləri:		
0105 11 910 0	– – – – yumurtlayan növlər	əd	15
0105 11 990 0	– – – – digərləri	əd	15
0105 12 000 0	– – hindtoyuqları	əd	15
0105 13 000 0	– – ördəklər	əd	15
0105 14 000 0	– – qazlar	əd	15
0105 15 000 0	– – firəngtoyuqları	əd	15
	– digərləri:		
0105 94 000 0	– – ev toyuqları *(Gallus domesticus)*	əd	15
0105 99	– – digərləri:		
0105 99 100 0	– – – ördəklər	əd	15
0105 99 200 0	– – – qazlar	əd	15
0105 99 300 0	– – – hindtoyuqları	əd	15
0105 99 500 0	– – – firəngtoyuqları	əd	15
0106	Digər diri heyvanlar:		
	– məməlilər:		
0106 11 00	– – primatlar:		
0106 11 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 11 009 0	– – – digərləri	əd	15
0106 12 00	– – balinalar, delfinlər və dəniz donuzları (*Cetacea* dəstəsindən məməlilər); lamantinlər və dyoqonlar (*Sirenia* dəstəsindən məməlilər); suitilər, dəniz şirləri və morjlar (*Pinnipedia* yarımdəstəsinin məməliləri):		
0106 12 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 12 009 0	– – – digərləri	əd	15
0106 13 00	– – dəvələr və digər dəvələr fəsiləsinin heyvanları *(Camelidae)*:		
0106 13 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 13 009 0	– – – digərləri	əd	15
0106 14	– – evdovşanları və dovşanlar:		
0106 14 10	– – – evdovşanları:		
0106 14 101 0	– – – – elmi tədqiqat məqsədləri üçün	əd	0

0106 14 109 0	– – – – digərləri	əd	15
0106 14 90	– – – digərləri:		
0106 14 901 0	– – – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 14 909 0	– – – – digərləri	əd	15
0106 19 00	– – digərləri:		
0106 19 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 19 009 0	– – – digərləri	əd	15
0106 20 00	– sürünənlər (ilanlar və tısbağalar da daxil olmaqla):		
0106 20 001 0	– – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 20 009 0	– – digərləri	əd	15
	– quşlar:		
0106 31 00	– – yırtıcı quşlar:		
0106 31 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 31 009 0	– – – digərləri	əd	15
0106 32 00	– – tutuquşukimilər (tutuquşular, uzunquyruqlu tutuquşular, ara və kakadu daxil olmaqla):		
0106 32 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 32 009 0	– – – digərləri	əd	15
0106 33 00	– – dəvəquşular; emu *(Dromaius novaehollandiae)*:		
0106 33 001 0	– – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 33 009 0	– – – digərləri	əd	15
0106 39	– – digərləri:		
0106 39 100 0	– – – göyərçinlər	əd	15
0106 39 80	– – – digərləri:		
0106 39 801 0	– – – – elmi tədqiqat məqsədləri üçün	əd	0
0106 39 809 0	– – – – digərləri	əd	15
	– həşəratlar:		
0106 41 000 0	– – arılar	əd	15
0106 49 000 0	– – digərləri [5]	əd	15
0106 90 00	– digərləri:		
0106 90 001 0	– – elmi tədqiqat məqsədləri üçün heyvanlar	əd	0
0106 90 009 0	– – digərləri	əd	15

QRUP 02

ƏT VƏ QİDAYA YARARLI ƏLAVƏ ƏT MƏHSULLARI

Qeydlər:

1. Bu qrupa aşağıdakılar daxil edilmir:

(a) 0201-0208 və ya 0210 mal mövqelərindəki qida üçün yararsız olan məhsulları;

(b) yeyilə bilən, canlı olmayan həşəratlar (0410 mal mövqeyi); [6]

(c) heyvanların bağırsaqları, kisələri və ya mədələri (0504 mal mövqeyi) və ya heyvan qanı (0511 və ya 3002 mal mövqeləri); və ya

(d) 0209 mal mövqeyindəki məhsullardan başqa, heyvan piyi (15-ci qrup).

Əlavə qeydlər:

1. (A) Aşağıdakı terminlər ifadə edir:

(a) 0201 10 və 0202 10 yarımmövqelərində nəzərdə tutulmuş "iribuynuzlu mal-qaranın cəmdəkləri" - başı ilə və ya başsız, ayaqları ilə və ya ayaqlarsız, digər ayrılmamış əlavə ət məhsulları ilə və ya onlarsız idxal edilən kəsilmiş heyvanların qansızlaşdırılmış, içalatı çıxarılmış və dərisi soyulmuş bütöv cəmdəklərdir. Cəmdək başsız idxal edildilkdə, baş cəmdəkdən atlant-peysər oynaq nahiyəsində ayrılmalıdır. Cəmdəklər ayaqlarsız idxal

edildikdə, ayaqlar bilək-əl darağı oynağı və ya ayaq darağının arxa oynağı nahiyəsində ayrılmalıdır; "cəmdəyə" onun bütün sümükləri olan ön hissəsi və boyun əti daxildir, bu zaman boyun hissəsində və kürək hissəsinin qabırğa kənarında 10 cütdən çox qabırğa olmalıdır;

(b) 0201 10 və 0202 10 yarımmövqelərində nəzərdə tutulmuş "iribuynuzlu mal-qaranın şaqqası" - bütöv cəmdəyin boyun, döş, bel və oma fəqərələrinin ortasından, döş və yan-qasıq birləşməsinin mərkəzindən simmetrik olaraq ayrılması nəticəsində alınan məhsuldur; "şaqqa"ya bütün sümükləri və boyun əti daxildir, bu zaman boyun və kürək hissəsinin qabırğa kənarında 10-dan çox qabırğa olmalıdır;

(c) 0201 20 200 0 və 0202 20 100 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "kompensasiya edilmiş yarımşaqqalar" aşağıdakıların birindən ibarət olan cəmdək hissəsidir:

- boyun əti ilə boyun hissəsi ilə, 10-cu qabırğa səviyyəsində kəsilmiş kürək hissəsinin qabırğa tərəfi ilə birlikdə bütün sümükləri olan ön yarımşaqqa, və bud və bud ətrafı ilə birlikdə bütün sümükləri olan 3-cü qabırğa səviyyəsində kəsilmiş arxa yarımşaqqa; və ya

- boyun əti ilə boyun hissəsi ilə, bütöv paşina və döş əti ilə 5-ci qabırğa səviyyəsində kəsilmiş kürək hissəsinin qabırğa kənarları ilə birlikdə bütün sümükləri olan ön yarımşaqqa, və bud və bud ətrafı ilə birlikdə bütün sümükləri olan 8-ci qabırğa səviyyəsində kəsilmiş arxa yarımşaqqa;

"Kompensasiya edilmiş yarımşaqqa"nı təşkil edən ön və arxa yarımşaqqalar eyni zamanda və eyni miqdarda idxal olunmalıdır. Bu zaman ön yarımşaqqaların ümumi çəkisi arxa yarımşaqqaların ümumi çəkisinə bərabər olmalıdır. Bununla belə, mal partiyasının bu iki hissəsinin (ön və arxa yarımşaqqaların) çəkisində müəyyən fərq ola bilər, bir şərtlə ki, həmin fərq daha ağır hissənin çəkisinin 5 %-dən artıq olmasın;

(ç) 0201 20 300 0 və 0202 20 300 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "bölünməmiş ön yarımşaqqalar" - boyun əti ilə boyun hissəsi ilə, minimum 4 maksimum 10 cüt qabırğa olmaqla (birinci dörd qabırğa bütöv, digərləri isə doğranmış ola bilər) paşina ilə birlikdə və ya paşinasız kürək hissəsinin qabırğa tərəfi ilə birlikdə bütün sümükləri olan cəmdəyin ön hissəsidir;

(d) 0201 20 300 0 və 0202 20 300 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "bölünmüş ön yarımşaqqalar" - boyun əti ilə boyun hissəsi ilə, minimum 4 maksimum 10 qabırğa olmaqla (birinci dörd qabırğa bütöv, digərləri isə doğranmış ola bilər) paşina ilə birlikdə və ya paşinasız kürək hissəsinin qabırğa tərəfi ilə birlikdə bütün sümükləri olan yarımşaqqanın ön hissəsidir;

(e) 0201 20 500 0 və 0202 20 500 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "bölünməmiş arxa yarımşaqqalar" - file hissəsi daxil olmaqla, bud və bud ətrafları ilə, minimum 3 cüt bütöv və ya doğranmış qabırğaları olan, baldırla birlikdə və baldırsız, paşina ilə birlikdə və ya paşinasız bütün sümükləri olan cəmdəyin arxa hissəsidir;

(ə) 0201 20 500 0 və 0202 20 500 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "bölünmüş arxa yarımşaqqalar" - file hissəsi daxil olmaqla, bud və bud ətrafları ilə, minimum 3 bütöv və ya doğranmış qabırğaları olan, baldırla birlikdə və baldırsız, paşina ilə birlikdə və ya paşinasız bütün sümükləri olan yarımşaqqanın arxa hissəsidir;

(f) (1) 0202 30 500 0 alt yarımmövqeyində nəzərdə tutulmuş "kürək" və "boyun-kürək" parçaları - döşün birinci seqmentinin birinci qabırğa ilə birləşmə nöqtəsindən onuncu qabırğada diafraqmanın büküş yerinə qədər düz xətt üzrə cəmdəyin doğranması yolu ilə, minimum 4, maksimum 10 qabırğa ilə birlikdə ön yarımşaqqadan alınmış, kürək hissəsinin onurğa tərəfinin yuxarı hissəsi də daxil olmaqla ön yarımşaqqanın bel hissəsidir.

(2) 0202 30 500 0 alt yarımmövqeyində nəzərdə tutulmuş "döş əti" parçası – döş hissəsinin ön və arxa hissələri də daxil olmaqla, ön yarımşaqqanın aşağı hissəsidir.

(B) Bu qrupa dair 1(A) (a - ə) əlavə qeydində göstərilən məhsullar bel sütunu ilə birlikdə və ya bel sütunu olmadan da təqdim edilə bilər.

(C) 1 (A) bəndinə uyğun olaraq göstərilmiş bütöv və ya doğranmış qabırğaların sayının müəyyən edilməsi zamanı yalnız bel sütunundan ayrılmamış qabırğalar nəzərə alınır. Bel sütunu olmadığı halda, olmayan bel sütunu ilə birləşən mövcud bütöv və ya doğranmış qabırğalar nəzərə alınmalıdır.

2. (A) Aşağıdakı terminlər ifadə edir:

(a) 0203 11 100 0 və 0203 21 100 0 alt yarımmövqelərində nəzərdə tutulmuş "cəmdək və şaqqalar" – qansızlaşdırıldıqdan və daxili orqanları çıxarıldıqdan, tükləri və dırnaqları təmizləndikdən sonra cəmdək şəklində kəsilmiş ev donuzlarıdır. Şaqqalar bütöv cəmdəyin boyun, döş, bel və oma fəqərələrindən və döş sümüyünün və yan-qasıq birləşməsi boyunca kəsilməsi yolu ilə əldə edilir. Bütöv cəmdəklər və ya şaqqalar başlı və ya başsız, ayaqlarla, böyrək piyi ilə, böyrəklərlə, quyruqla, diafraqma ilə və ya onsuz ola bilər. Şaqqalarda onurğa beyni, beyin və ya dil çıxarıla və ya çıxarılmaya bilər. Anac donuzların bütöv cəmdəklərində və şaqqalarında yelin (süd vəziləri) saxlanıla və ya çıxarıla bilər.

(b) 0203 12 110 0, 0203 22 110 0, 0210 11 110 0 və 0210 11 310 0 alt yarımmövqelərində "bud" (arxa bud) – ayaqla və ya ayaqsız, baldırla, gönlə və dərialtı piylə və ya onlarsız, sümüklər də daxil olmaqla, şaqqanın arxa (quyruq) hissəsidir.

Bud (arxa bud) şaqqanın digər hissələrindən ən çoxu son bel sümüyünün fəqərəsindən keçən xətt boyu ayrılır.

(c) 0203 19 110 0, 0203 29 110 0, 0210 19 300 0 və 0210 19 600 0 alt yarımmövqelərində "ön hissə" – ayaq, ön ətrafın sümüksüz əti, gönü, dərialtı piyi ilə birlikdə və onlarsız sümüklər də daxil olmaqla şaqqanın başsız ön (baş) hissəsidir.

Ön hissə şaqqanın qalan hissəsindən ən çoxu 5-ci döş fəqərəsini əhatə edən xətt boyu ayrılır.

Bitişik əzələlərlə birlikdə kürək sümüyü ilə və ya onsuz (təzə halda boyun hissəsi və ya bekon yarısının boyun hissəsi duzlanmış halda) ön hissənin yuxarı (kürək) hissəsi, ön hissəsinin aşağı (qarın) hissəsindən ən çoxu bilavasitə bel sütununun altından keçən xətt boyu kəsildikdə can əti parçası sayılır.

(ç) 0203 12 190 0, 0203 22 190 0, 0210 11 190 0 və 0210 11 390 0 alt yarımmövqelərində "kürək" (ön bud) - sümüklər də daxil olmaqla, ön ətrafının sümüksüz əti ilə, gön və dərialtı piy ilə birlikdə və ya onlarsız, bitişik əzələlərlə birlikdə kürək sümüyü ilə və ya onsuz ön hissənin aşağı hissəsidir.

Ayrıca idxal edilən bitişik əzələlərlə birlikdə kürək sümüyü bu alt yarımmövqeyinə ön budun bir hissəsi kimi daxil edilir.

(d) 0203 19 130 0, 0203 29 130 0, 0210 19 400 0 və 0210 19 700 0 alt yarımmövqelərində "can əti" – sümüklər də daxil olmaqla, bonfile, kürək sümüyü, dərialtı piy, dəri ilə birlikdə və ya onlarsız, birinci boyun fəqərəsindən quyruq fəqərələrinə qədər olan şaqqanın üst hissəsidir.

Can əti şaqqanın aşağı hissəsindən bilavasitə onurğa sümüyünün altından keçən xətt boyunca ayrılır;

(e) 0203 19 150 0, 0203 29 150 0, 0210 12 110 0 və 0210 12 190 0 alt yarımmövqelərində "döş əti" - ön və arxa budların ətarasında yerləşən, adətən "striklər" (bekon yarısının döş hissəsi) adı ilə tanınan, sümüklü və ya sümüksüz, lakin dəri və dərialtı piylə birlikdə olan şaqqanın alt hissəsidir;

(ə) 0210 19 100 0 alt yarımmövqeyində "bekon yarısı" – baş, gıdık, ayaqlar, baklar, quyruq, böyrək piyi, böyrəklər, bonfile, kürək sümüyü, döş sümüyü, bel sütunu, çanaq sümüyü və diafraqması olmayan donuzun şaqqasıdır.

(f) 0210 19 100 0 alt yarımmövqeyində "spenser" – sümüksüz və ya sümüklü, bud ətrafı olmayan bekon yarısıdır;

(g) 0210 19 200 0 alt yarımmövqeyində "donuzun yan tərəfinin 3/4-ü" - sümüksüz və ya sümüklü ön hissəsiz bekon yarısıdır;

(ğ) 0210 19 200 0 alt yarımmövqeyində "donuzun ortası" - sümüksüz və ya sümüklü, bud ətrafısız və ön hissəsiz bekon yarısıdır.

Bu alt yarımmövqeyinə, həmçinin bütövlüklə donuz ortasının təbii tərkibinə mütənasib olan can ətinin və döş ətinin toxumalarından ibarət olan donuz ortasının kəsikləri də daxil edilir.

(B) 2 (A) (e) bəndində göstərilən kəsiklərin hissələri tərkibində dəri və dərialtı piy olduqda da eyni alt yarımmövqeyinə daxil edilir.

0210 11 110 0 və 0210 11 190 0, 0210 11 310 0, 0210 11 390 0, 0210 19 300 0 və 0210 19 600 0 alt yarımmövqelərinə daxil edilən parçalar 2 (A) (ə) bəndində adıçəkilən sümüklər çıxarılmış bekon yarısından alındığı halda, kəsilmə xətləri 2 (A) (b, c, ç) bəndində göstərilmiş xətlər üzrə aparılmalıdır; hər bir halda bu parçalarda və onların hissələrində sümük olmalıdır.

(C) 0206 49 200 0 və 0210 99 490 0 alt yarımmövqelərinə, həmçinin beyni, yanağı və ya dili çıxarılmış və ya çıxarılmamış ev donuzlarının başları, başlarının yarısı və ya onların hissələri daxil edilir.

Baş şaqqanın digər hissəsindən aşağıdakı qaydada ayrılır:

- kəlləyə paralel düz kəsiklə; və ya

- göz səviyyəsinə qədər kəlləyə paralel kəsiklə və daha sonra gıdıkın şaqqada saxlanılmaq şərtilə ön hissəyə meyilli aparılan kəsiklə.

Yanaqlar, donuz burunları və qulaqları, eləcə də xüsusilə arxa tərəfdən başa bitişik ət başın hissələrinə aid edilir. Lakin bir parça şəklində təqdim olunmuş ön hissənin sümüksüz əti (gıdıklar, baklar, və ya gıdıklar və baklar birlikdə) konkret şərtlərdən asılı olaraq, 0203 19 550 0, 0203 29 550 0, 0210 19 500 0 və ya 0210 19 810 0 alt yarımmövqeyinə daxil edilir.

(Ç) 0209 00 110 0 və 0209 00 190 0 alt yarımmövqelərində "dərialtı donuz piyi" cəmdəyin hansı hissəsindən alınmasından asılı olmayaraq, heyvanın dərisinin altında əmələ gələn və ona bitişik olan piy toxumalarını bildirir; hər bir halda piy toxumalarının çəkisi dəri çəkisindən artıq olmalıdır.

Bu alt yarımmövqelərinə, həmçinin donuzun dərisindən ayrılmış dərialtı piy də daxildir.

(D) 0210 11 310 0, 0210 11 390 0, 0210 12 190 0 və 0210 19 600 0 – 0210 19 890 0 alt yarımmövqelərində ətdə su/zülal nisbəti 2,8 (zülal = azotun miqdarı x 6,25) və ya daha az olan məhsullar "qurudulmuş və ya hisə verilmiş" kimi sayılır.

3. (A) 0204 mal mövqeyində istifadə edilən terminlər aşağıdakıları bildirir:

(a) 0204 10, 0204 21, 0204 30, 0204 41 mal mövqelərində və 0204 50 110 0 və 0204 50 510 0 alt yarımmövqelərində "cəmdəklər" - qansızlaşdırılmış, daxili orqanları çıxarıldılmış və gönü soyulmuş, başlı və ya başsız, ayaqlarla və ya ayaqlarsız, digər ayrılmamış ətin əlavə məhsulları ilə və ya onlarsız kəsilmiş heyvanların bütöv cəmdəkləridir. Cəmdək başsız idxal edildikdə baş cəmdəkdən atlant-peysər oynağı nahiyəsindən

ayrılmalıdır. Cəmdəklər ayaqlarsız idxal edildikdə, onlar bilək-əl darağı oynağı və ya ayaq darağının arxa oynağı nahiyəsindən ayrılmalıdır;

(b) 0204 10, 0204 21, 0204 30, 0204 41 mal mövqelərində və 0204 50 110 0, 0204 50 510 0 alt yarımmövqelərində "şaqqalar" - bütöv cəmdəyin hər bir boyun, döş, bel və oma fəqərəsinin ortasından və döş və yan-qasıq birləşməsinin ortasından simmetrik olaraq doğranması nəticəsində alınan məhsuldur;

(c) 0204 22 100 0, 0204 42 100 0, 02 04 50 130 0 və 0204 50 530 0 alt yarımmövqelərində "qısa ön yarımşaqqalar" - bel sütunu ilə düz bucaq altında doğranmış və minimum beş, maksimum yeddi cüt bütöv və ya doğranmış qabırğalardan ibarət olan, döş əti ilə və ya onsuz, bütün sümükləri və kürəkləri, ön ətrafının əti, boyun əti və boyun-bel hissəsi ilə birlikdə cəmdəyin ön hissəsidir;

(ç) 0204 22 100 0, 0204 42 100 0, 0204 50 130 0 və 0204 50 530 0 alt yarımmövqelərində "qısa ön yarımşaqqa" - bel sütunu ilə düz bucaq altında doğranmış və minimum 5, maksimum 7 cüt bütöv və ya doğranmış qabırğalardan ibarət olan, döş əti ilə və ya onsuz, bütün sümükləri və kürəkləri, ön ətrafının əti, boyun əti və boyun-bel hissəsi ilə birlikdə şaqqanın ön hissəsidir;

(d) 0204 22 300 0, 0204 42 300 0, 0204 50 150 0 və 0204 50 550 0 alt yarımmövqelərində "bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissəsi" - baldırlı çanaq-bud hissələrinin və ya böyrəklərlə və ya böyrəklərsiz qısa ön yarımşaqqaların ayrılmasından sonra cəmdəyin qalan hissəsi; böyrək hissələrinin ayrılması zamanı bel hissənin onurğa tərəfinın minimum 5 bel fəqərəsi olmalıdır; onurğa tərəflərindən ayrılmış böyrək hissələrinin isə minimum 5 cüt bütöv və ya doğranmış qabırğaları olmalıdır;

(e) 0204 22 300 0, 0204 42 300 0, 0204 50 150 0 və 0204 50 550 0 alt yarımmövqelərində "bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissələri" - baldırlı çanaq-bud hissəsinin və ya böyrəklə və ya böyrəksiz qısa ön yarımşaqqaların ayrılmasından sonra şaqqanın qalan hissəsidir; böyrək hissəsinin ayrılması zamanı bel hissənin onurğa tərəfinın minimum 5 bel fəqərəsi olmalıdır; onurğa tərəfindən ayrılmış böyrək hissəsinin isə minimum 5 bütöv və ya doğranmış qabırğaları olmalıdır;

(ə) 0204 22 500 0, 0204 42 500 0, 0204 50 190 0 və 0204 50 590 0 alt yarımmövqelərində "baldırlı çanaq-bud hissələri" - bel sütununa düz bucaq altında altıncı bel fəqərəsi səviyyəsində bilavasitə çanaq sümüyünün üst altından doğranmış və ya dördüncü oma fəqərəsi səviyyəsində çanaq sümüyünün üzərindən yan-qasıq birləşməsi istiqamətində doğranmış, bütün sümüklər və arxa baldırlar da daxil olmaqla cəmdəyin arxa hissəsidir;

(z) 0204 22 500 0, 0204 42 500 0, 0204 50 190 0 və 0204 50 590 0 alt yarımmövqelərində "baldırlı çanaq-bud hissəsi" - bel sütununa düz bucaq altında altıncı bel fəqərəsi səviyyəsində bilavasitə çanaq sümüyünün üst altından doğranmış və ya dördüncü oma fəqərəsi səviyyəsində çanaq sümüyünün üzərindən yan-qasıq birləşməsi istiqamətində doğranmış, bütün sümüklər və arxa baldır da daxil olmaqla, şaqqanın arxa hissəsidir;

(B) 3 (A) bəndinə uyğun bütöv və ya doğranmış qabırğaların sayı müəyyən edildikdə, yalnız bel sütunundan ayrılmamış qabırğalar nəzərə alınır.

4. Aşağıdakı terminlər bildirir:

(a) 0207 13 200 0 - 0207 13 600 0, 0207 14 200 0 – 0207 14 600 0, 0207 26 200 0 – 0207 26 700 0, 0207 27 200 0 – 0207 27 700 0, 0207 44 210 0 – 0207 44 710 0, 0207 45 210 0 – 0207 45 710 0, 0207 54 210 0 - 0207 54 710 0, 0207 55 210 0 - 0207 55 710 0 və 0207 60 210 0 - 0207 60 610 0 alt yarımmövqelərində "sümüklü cəmdək hissələri" - bütün sümükləri olan hissələrdir;

(b) bəndində göstərilən, lakin sümükləri qismən çıxarılmış cəmdək hissələri 0207 13 700 0, 0207 14 700 0, 0207 26 800 0, 0207 27 800 0, 0207 44 810 0, 0207 45 810 0, 0207 54 810 0, 0207 55 810 0 və ya 0207 60 810 0 alt yarımmövqelərinə daxil edilir;

(c) 0207 13 200 0, 0207 14 200 0, 0207 26 200 0, 0207 27 200 0, 0207 44 210 0, 0207 45 210 0, 0207 54 210 0, 0207 54 210 0, 0207 55 210 0 və 0207 60 210 0 alt yarımmövqelərində "yarım" - ev quşlarının döş sümüyünün və onurğasının uzununa kəsilməsi ilə alınan cəmdək yarısıdır;

(ç) 0207 13 200 0, 0207 14 200 0, 0207 26 200 0, 0207 27 200 0, 0207 44 210 0, 0207 45 210 0, 0207 54 210 0, 0207 54 210 0, 0207 55 210 0 və 0207 60 210 0 alt yarımmövqelərində "çeyrək" - cəmdələrin yarısılarının bölünməsi yolu ilə alınmış ayaq və ya döş çeyrəkləridir;

(d) 020713 300 0, 0207 14 300 0, 0207 26 300 0, 0207 27 300 0, 0207 44 310 0, 0207 45 310 0, 0207 54 310 0, 0207 55 310 0 və 0207 60 310 0 alt yarımmövqelərində "nazik uclu və ya onsuz bütöv qanadlar" - bitişik əzələlərlə birlikdə çiyin, mil və dirsək sümüklərindən ibarət olan cəmdək hissələri. Əl sümüyünün nazik ucu ayrıla bilər. Bu parçalar oynaqlardan ayrılmalıdır;

(e) 0207 13 500 0, 0207 14 500 0, 0207 26 500 0, 0207 27 500 0, 0207 44 510 0, 0207 45 510 0, 0207 54 510 0, 0207 55 510 0 və 0207 60 510 0 alt yarımmövqelərində "döş əti" **-** hər iki tərəfi qabırğalı döş sümüyündən ibarət olan bitişik ətraf əzələləri ilə cəmdək hissələridir;

(ə) 0207 13 600 0, 0207 14 600 0, 0207 44 610 0, 0207 45 610 0, 0207 54 610 0, 0207 55 610 0 və 0207 60 610 0 alt yarımmövqelərində "ayaqlar" - bud, böyük baldır və kiçik baldır sümüklərindən ibarət olan bitişik ətraf əzələləri ilə birlikdə cəmdək hissələridir. Bu parçalar oynaqlardan ayrılmalıdır;

(f) 0207 26 600 0 və 0207 27 600 0 alt yarımmövqelərində "hindtoyuğu baldırları" - böyük baldır və kiçik baldır sümüklərindən ibarət olan bitişik ətraf əzələləri ilə birlikdə hidtoyuqlarının tikələridir. Bu parçalar oynaqlardan ayrılmalıdır;

(g) 0207 26 700 0 və 0207 27 700 0 alt yarımmövqelərində "baldırlar istisna olmaqla hindtoyuğu ayaqları" - bitişik ətraf əzələləri ilə birlikdə bud sümüyündən və ya bitişik ətraf əzələləri ilə birlikdə bud, böyük baldır və kiçik baldır sümüklərindən ibarət olan hindtoyuğu tikələri. Bu parçalar oynaqlardan ayrılmalıdır.

(ğ) 0207 44 710 0, 0207 45 710 0, 0207 54 710 0 və 0207 55 710 0 alt yarımmövqelərində "paletotlar" - yolunmuş və ya daxili orqanları tamamilə çıxarılmış, başsız və ayaq daraqlarsız, skelet sümükləri (döş sümüyü, qabırğalar, onurğa və oma sümüyü) çıxarılmış, lakin bud, baldır və çiyin sümükləri saxlanılmış cəmdəklər.

5. (a) İstilik tətbiq olunmadan kulinar yolla hazırlanmış ədviyyatlı ət 16-cı qrupa daxil edilir. "Ədviyyatlı ət" - açıq-aydın gözlə görünən və ya dadı hiss olunan məhsulun daxilində və ya bütün səthində ədviyyat olan istilik tətbiq olunmadan kulinar yolla hazırlanmamış ətdir.

(b) ədviyyat onların fərqləndirici əlamətlərini dəyişdirmədiyi halda hazırlanma zamanı ədviyyat əlavə olunmuş 0210 mal mövqeyinin məhsulları bu mal mövqeyinə daxil edilir.

6. 02 10 11 - 02 10 93 yarımmövqelərində "duzlu, duzlu suda olan ət və qida üçün yararlı olan ətin əlavə məhsulları" termini ümumi duzun miqdarı 1,2 kütlə % və ya daha çox olan, duzlama məhsulun uzun müddət saxlanmasını təmin etdiyi halda, bütün hissələri dərin və bərabər duzla hopdurulmuş əti və qida üçün yararlı olan ətin əlavə məhsullarını bildirir. 02 10 99 yarımmövqeyində "duzlu, duzlu suda olan ət və qida üçün yararlı olan ətin əlavə məhsulları" termini ümumi duzun miqdarı 1,2 kütlə% və ya daha çox olan, bütün hissələri dərin və bərabər duzla hopdurulmuş əti və qida üçün yararlı olan ətin əlavə məhsullarını bildirir.

XİF MN üzrə kod	**Mal mövqelərinin adları**	**Əlavə ölçü vahidi**	**Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)**
1	**2**	**3**	**4**
0201	Təzə və ya soyudulmuş iribuynuzlu mal-qara əti:		
0201 10 000 0	– cəmdəklər və şaqqalar	–	15
0201 20	– digər sümüklü parçalar:		
0201 20 200 0	– – "kompensasiya edilmiş" yarımşaqqalar	–	15
0201 20 300 0	– – bölünmüş və ya bölünməmiş ön yarımşaqqalar	–	15
0201 20 500 0	– – bölünmüş və ya bölünməmiş arxa yarımşaqqalar	–	15
0201 20 900 0	– – digərləri	–	15
0201 30 000 0	– sümüksüz ət	–	15
0202	Dondurulmuş iribuynuzlu mal-qara əti:		
0202 10 000 0	– cəmdəklər və şaqqalar	–	15
0202 20	– digər sümüklü parçalar:		
0202 20 100 0	– – "kompensasiya edilmiş" yarımşaqqalar	–	15
0202 20 300 0	– – bölünmüş və ya bölünməmiş ön yarımşaqqalar	–	15
0202 20 500 0	– – bölünmüş və ya bölünməmiş arxa yarımşaqqalar	–	15
0202 20 900 0	– – digərləri	–	15
0202 30	– sümüksüz ət:		
0202 30 100 0	– – hər bir yarımşaqqa bir blokda təqdim edilən bütöv və ya ən çox beş parçaya bölünmüş ön yarımşaqqalar; iki blokda təqdim edilən, birinin tərkibində bütöv və ya ən çox beş parçaya ayrılmış ön yarımşaqqa olan, digərinin isə tərkibində bir kəsiklə ayrılmış can əti istisna olmaqla arxa yarımşaqqa olan "kompensasiya edilmiş" yarımşaqqalar	–	15
0202 30 500 0	– – kürək, boyun-kürək hissəsi və döş əti	–	15

0202 30 900 0	– – digər	–	15
0203	Təzə, soyudulmuş və ya dondurulmuş donuz əti:		
	– təzə və ya soyudulmuş:		
0203 11	– – cəmdəklər və şaqqalar:		
0203 11 100 0	– – – ev donuzlarının	–	15
0203 11 900 0	– – – digərləri	–	15
0203 12	– – sümüklü budlar, kürəklər və onların parçaları:		
	– – – ev donuzlarının:		
0203 12 110 0	– – – – budlar və onların parçaları	–	15
0203 12 190 0	– – – – kürəklər və onların parçaları	–	15
0203 12 900 0	– – – digərləri	–	15
0203 19	– – digər:		
	– – – ev donuzlarının:		
0203 19 110 0	– – – – ön hissə və onun parçaları	–	15
0203 19 130 0	– – – – sümüklü can əti və onun parçaları	–	15
0203 19 150 0	– – – – döş əti və onun parçaları	–	15
	– – – – digər:		
0203 19 550 0	– – – – – sümüksüz ət	–	15
0203 19 590 0	– – – – – digər	–	15
0203 19 900 0	– – – digər	–	15
	– dondurulmuş:		
0203 21	– – cəmdəklər və şaqqalar:		
0203 21 100 0	– – – ev donuzlarının	–	15
0203 21 900 0	– – – digərləri	–	15
0203 22	– – sümüklü budlar, kürəklər və onların parçaları:		
	– – – ev donuzlarının:		
0203 22 110 0	– – – – budlar və onların parçaları	–	15
0203 22 190 0	– – – – kürəklər və onların parçaları	–	15
0203 22 900 0	– – – digərləri	–	15
0203 29	– – digər:		
	– – – ev donuzlarının:		
0203 29 110 0	– – – – ön hissə və onun parçaları	–	15
0203 29 130 0	– – – – sümüklü can əti və onun parçaları	–	15
0203 29 150 0	– – – – döş əti və onun parçaları	–	15
	– – – – digər:		
0203 29 550 0	– – – – – sümüksüz ət	–	15
0203 29 590 0	– – – – – digər	–	15
0203 29 900 0	– – – digər	–	15
0204	Təzə, soyudulmuş və ya dondurulmuş qoyun əti və ya keçi əti:		
0204 10 000 0	– təzə və ya soyudulmuş quzu cəmdəkləri və şaqqaları	–	15
	– təzə və ya soyudulmuş digər qoyun əti:		
0204 21 000 0	– – cəmdəklər və şaqqalar	–	15
0204 22	– – sümüklü digər parçalar:		
0204 22 100 0	– – – qısa ön yarımşaqqaları	–	15
0204 22 300 0	– – – bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissələri	–	15
0204 22 500 0	– – – baldırlı çanaq-bud hissələri	–	15
0204 22 900 0	– – – digərləri	–	15
0204 23 000 0	– – sümüksüz ət	–	15
0204 30 000 0	– dondurulmuş quzu cəmdəkləri və şaqqaları	–	15
	– dondurulmuş digər qoyun əti:		

0204 41 000 0	– – cəmdəklər və şaqqalar	–	15
0204 42	– – sümüklü digər parçalar:		
0204 42 100 0	– – – qısa ön yarımşaqqalar	–	15
0204 42 300 0	– – – bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissələri	–	15
0204 42 500 0	– – – baldırlı çanaq-bud hissələri	–	15
0204 42 900 0	– – – digərləri	–	15
0204 43	– – sümüksüz ət:		
0204 43 100 0	– – – quzuların	–	15
0204 43 900 0	– – – digər	–	15
0204 50	– keçi əti:		
	– – təzə və ya soyudulmuş:		
0204 50 110 0	– – – cəmdəklər və şaqqalar	–	15
0204 50 130 0	– – – qısa ön yarımşaqqaları	–	15
0204 50 150 0	– – – bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissələri	–	15
0204 50 190 0	– – – baldırlı çanaq-bud hissələri	–	15
	– – – digər:		
0204 50 310 0	– – – – sümüklü parçalar	–	15
0204 50 390 0	– – – – sümüksüz ət	–	15
	– – dondurulmuş:		
0204 50 510 0	– – – cəmdəklər və şaqqalar	–	15
0204 50 530 0	– – – qısa ön yarımşaqqaları	–	15
0204 50 550 0	– – – bel hissəsinin onurğa tərəfi və (və ya) böyrək hissələri	–	15
0204 50 590 0	– – – baldırlı çanaq-bud hissələri	–	15
	– – – digər:		
0204 50 710 0	– – – – sümüklü parçalar	–	15
0204 50 790 0	– – – – sümüksüz ət	–	15
0205 00	Atların, ulaqların, qatırların və ya at qatırlarının təzə, soyudulmuş və ya dondurulmuş əti:		
0205 00 200 0	– təzə və ya soyudulmuş	–	15
0205 00 800 0	– dondurulmuş	–	15
0206	İribuynuzlu mal-qaranın, donuzların, qoyunların, keçilərin, atların, ulaqların, qatırların və ya at qatırlarının təzə, soyudulmuş və ya dondurulmuş qida üçün yararlı olan ətinin əlavə məhsulları:		
0206 10	– təzə və ya soyudulmuş iribuynuzlu mal-qaranın:		
0206 10 100 0	– – əczaçılıq məhsullarının istehsalı üçün	–	0
	– – digərləri:		
0206 10 950 0	– – – qalın diafraqma və nazik diafraqma	–	15
0206 10 980 0	– – – digərləri	–	15
	– dondurulmuş iribuynuzlu mal-qaranın:		
0206 21 000 0	– – dillər	–	15
0206 22 000 0	– – qaraciyər	–	15
0206 29	– – digərləri:		
0206 29 100 0	– – – əczaçılıq məhsullarının istehsalı üçün	–	0
	– – – digərləri:		
0206 29 910 0	– – – – qalın diafraqma və nazik diafraqma	–	15
0206 29 990 0	– – – – digərləri	–	15
0206 30 000 0	– təzə və ya soyudulmuş donuzların	–	15
	– dondurulmuş donuzların:		
0206 41 000 0	– – qaraciyər	–	15
0206 49 000 0	– – digərləri	–	15

0206 80	– *digərləri*, təzə və ya soyudulmuş:[7]		
0206 80 100 0	– – əczaçılıq məhsullarının istehsalı üçün	–	0
	– – digərləri:		
0206 80 910 0	– – – atların, ulaqların, qatırların və at qatırlarının	–	15
0206 80 990 0	– – – qoyunların və keçilərin	–	15
0206 90	– *digərləri, dondurulmuş*:[8]		
0206 90 100 0	– – əczaçılıq məhsullarının istehsalı üçün	–	0
	– – digərləri:		
0206 90 910 0	– – – atların, ulaqların, qatırların və at qatırlarının	–	15
0206 90 990 0	– – – qoyunların və keçilərin	–	15
0207	0105 mal mövqeyində göstərilən ev quşlarının təzə, soyudulmuş və ya dondurulmuş əti və qida üçün yararlı olan ətinin əlavə məhsulları:		
	– ev toyuqlarının *(Gallus domesticus)*:		
0207 11	– – hissələrə ayrılmamış, təzə və ya soyudulmuş:		
0207 11 100 0	– – – tükü yonulmuş və içalatı *bağırsaqsız*, baş və ayaq daraqları ilə, "83 %-li cücələr" kimi təqdim olunan[9]	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)[10]
0207 11 300 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "70 %-li cücələr" kimi təqdim olunan	–	~~15~~ (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 11 900 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız, ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "65 %-li cücələr" kimi təqdim olunan, və ya hər hansı digər kəsimdə təqdim olunan	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 12	– – hissələrə ayrılmamış, dondurulmuş:		
0207 12 100 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "70 %-li cücələr" kimi təqdim olunan	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 12 900 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "65 %-li cücələr" kimi təqdim olunan, və ya hər hansı digər kəsimdə təqdim olunan[11]	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13	– – təzə və ya soyudulmuş cəmdək hissələri və ətin əlavə məhsulları:		
	– – – cəmdək hissələri:		
0207 13 100 0	– – – – sümüksüz	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
	– – – – sümüklü:		
0207 13 200 0	– – – – – yarım və ya çeyrək	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13 300 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq -

			1 ABŞ dolları)
0207 13 400 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13 500 0	– – – – – döş əti və onun parçaları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13 600 0	– – – – – ayaqlar və onların parçaları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13 700 0	– – – – – digərləri	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
	– – – ətin əlavə məhsulları:		
0207 13 910 0	– – – – qaraciyər	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 13 990 0	– – – – digərləri	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14	– – dondurulmuş cəmdək hissələri və ətin əlavə məhsulları:		
	– – – cəmdək hissələri:		
0207 14 100 0	– – – – sümüksüz	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
	– – – – sümüklü:		
0207 14 200 0	– – – – – yarım və ya çeyrək	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 300 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 400 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 500 0	– – – – – döş əti və onun parçaları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 600 0	– – – – – ayaqlar və onların parçaları	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 700 0	– – – – – digərləri	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)

	– – – ətin əlavə məhsulları:		
0207 14 910 0	– – – – qaraciyər	–	15 (*31.12.2025-ci il* tarixədək 1kq - 1 ABŞ dolları)
0207 14 990[12]	*– – – – digərləri*		
0207 14 990 1	*– – – – – bud, böyük baldır sümüyü və ona bitişik ətraf əzələlər olmadan toyuq ayağı və onun hissələri*	–	*15*
0207 14 990 9	*– – – – – digərləri*	–	*15 (31.12.2025-ci il tarixinədək 1kq – 1 ABŞ dolları)*
	– hindtoyuqlarının:		
0207 24	– – hissələrə ayrılmamış, təzə və ya soyudulmuş:		
0207 24 100 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "80 %-li hindtoyuğu" kimi təqdim olunan	–	15
0207 24 900 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "73 %-li hindtoyuğu" kimi təqdim olunan, və ya hər hansı digər kəsimdə təqdim olunan	–	15
0207 25	– – hissələrə ayrılmamış, dondurulmuş:		
0207 25 100 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "80 %-li hindtoyuğu" kimi təqdim olunan	–	15
0207 25 900 0	– – – tükü yonulmuş və içalatı təmizlənmiş, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "73%-li hindtoyuğu" kimi təqdim olunan və ya hər hansı digər kəsimdə təqdim olunan	–	15
0207 26	– – təzə və ya soyudulmuş cəmdək hissələri və ətin əlavə məhsulları:		
	– – – cəmdək hissələri:		
0207 26 100 0	– – – – sümüksüz	–	15
	– – – – sümüklü:		
0207 26 200 0	– – – – – yarım və ya çeyrək	–	15
0207 26 300 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15
0207 26 400 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15
0207 26 500 0	– – – – – döş əti və onun parçaları	–	15
	– – – – – ayaqlar və onların parçaları:		
0207 26 600 0	– – – – – – baldırlar və onların parçaları	–	15
0207 26 700 0	– – – – – – digərləri	–	15
0207 26 800 0	– – – – – digərləri	–	15
	– – – ətin əlavə məhsulları:		
0207 26 910 0	– – – – qaraciyər	–	15
0207 26 990 0	– – – – digərləri	–	15
0207 27	– – dondurulmuş cəmdək hissələri və ətin əlavə məhsulları:		
	– – – cəmdək hissələri:		
0207 27 100 0	– – – – sümüksüz	–	15
	– – – – sümüklü:		
0207 27 200 0	– – – – – yarım və ya çeyrək	–	15
0207 27 300 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15

0207 27 400 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15
0207 27 500 0	– – – – – döş əti və onun parçaları	–	15
	– – – – – budlar və onların parçaları:		
0207 27 600 0	– – – – – – baldırlar və onların parçaları	–	15
0207 27 700 0	– – – – – – digərləri	–	15
0207 27 800 0	– – – – – digərləri	–	15
	– – – ətin əlavə məhsulları:		
0207 27 910 0	– – – – qaraciyər	–	15
0207 27 990 0	– – – – digərləri	–	15
	– ördəklərin:		
0207 41	– – hissələrə ayrılmamış, təzə və ya soyudulmuş:		
0207 41 200 0	– – – tükü yonulmuş, qansızlaşdırılmış, bağırsaqsız, lakin içalatı çıxarılmamış, başı və ayaq daraqları üstündə olan, "85 %-li ördəklər" kimi təqdim olunan	–	15
0207 41 300 0	– – – tükü yonulmuş və bağırsaqsız, başsız və ayaq daraqları olmayan, lakin boynu, *ürəyi, qaraciyəri* və pətənəyi üstündə olan, "70 %-li ördəklər" kimi təqdim olunan [13]	–	15
0207 41 800 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "63 %-li ördəklər" kimi təqdim olunan, və ya hər hansı başqa kəsimdə təqdim olunan	–	15
0207 42	– – hissələrə bölünməmiş, dondurulmuş:		
0207 42 300 0	– – – tükü yonulmuş və *içalatı çıxarılmış*, başsız və ayaq daraqları olmayan, lakin boynu, *ürəyi, qaraciyəri* və pətənəyi üstündə olan, "70 %-li ördəklər" kimi təqdim olunan [14]	–	15
0207 42 800 0	– – – tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "63 %-li ördəklər" kimi təqdim olunan, və ya hər hansı başqa kəsimdə təqdim olunan	–	15
0207 43 000 0	– – təzə və ya soyudulmuş yağlı qaraciyər	–	15
0207 44	– – digərləri, təzə və ya soyudulmuş:		
	– – – cəmdək hissələri:		
0207 44 100 0	– – – – sümüksüz	–	15
	– – – – sümüklü:		
0207 44 210 0	– – – – – yarım və ya çeyrək	–	15
0207 44 310 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15
0207 44 410 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15
0207 44 510 0	– – – – – döş əti və onun parçaları	–	15
0207 44 610 0	– – – – – ayaqlar və onların parçaları	–	15
0207 44 710 0	– – – – – paletotlar	–	15
0207 44 810 0	– – – – – digərləri	–	15
	– – – ətin əlavə məhsulları:		
0207 44 910 0	– – – – qaraciyər, yağlı istisna olmaqla	–	15
0207 44 990 0	– – – – digərləri	–	15
0207 45	– – digərləri, dondurulmuş:		
	– – – cəmdək hissələri:		
0207 45 100 0	– – – – sümüksüz	–	15
	– – – – sümüklü:		
0207 45 210 0	– – – – – yarım və ya çeyrək	–	15

0207 45 310 0	– – – – – nazik uclu və ya onsuz bütöv qanadlar	–	15
0207 45 410 0	– – – – – bellər, boyunlar, boyunlu bellər, büzdümlər və qanadların nazik ucları	–	15
0207 45 510 0	– – – – – döş əti və onun parçaları	–	15
0207 45 610 0	– – – – – ayaqlar və onların parçaları	–	15
0207 45 710 0	– – – – – paletotlar	–	15
0207 45 810 0	– – – – – digərləri	–	15
	– – – ətin əlavə məhsulları:		
	– – – – qaraciyər:		
0207 45 930 0	– – – – – yağlı qaraciyər	–	15
0207 45 950 0	– – – – – digərləri	–	15
0207 45 990 0	– – – – digərləri	–	15
	– qazların:		
0207 51	– – hissələrə ayrılmamış, təzə və ya soyudulmuş:		
0207 51 100 0	– – – tükü yonulmuş, qansızlaşdırılmış, içalatı çıxarılmamış, başı və ayaq daraqları üstündə olan, “82 %-li qazlar” kimi təqdim olunan	–	15
0207 51 900 0	– – – tükü yonulmuş və *içalatı çıxarılmış*, başsız və ayaq daraqları olmayan, ürəyi və pətənəyi üstündə olan və ya olmayan, “75%-li qazlar” kimi təqdim olunan, və ya hər hansı digər kəsimdə təqdim edilən [15]	–	15
